# TÜRK DÜNYASININ ŞAİRİ





Yardımlı rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi kitabxanasının növbəti tədbiri ictimai-siyasi xadim, Vətəndaş Həmrəyliyi Partiyasının sədri, Millət vəkili, "Şöhrət" ordenli xalq şairi Sabir Rüstəmxanlının anadan olmasının 76-cı illiyinə həsr olunmuşdu. “Türk dünyasının şairi” adlı tədbirdə mədəniyyət işçiləri, rayon ziyalıları, Yardımlı rayon Peşə məktəbinin və M.F.Axundov adına tam orta məktəbin şagirdləri iştirak edirdilər.

Vətən torpaqların azadlığı naminə canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilməklə başlanan tədbiri MKS-in direktoru Rahim Səfərov açdı. O, tədbir iştirakçılarını salamlayıb və şairi doğum günü münasibətilə təbrik etdi. Sonra Masallı Regional Mədəniyyət İdarəsinin Yardımlı rayon üzrə nümayəndəsi Ayaz Əliyevin Sabir Rüstəmxanlının həyatı, zəngin yaradıcılığı mövzusunda geniş məruzəsi dinlənildi. MKS-in şöbə müdiri G.Manafov, gənc yazıçı Ə.Əhmədoğlu, N.İqbal, F.Şahbazlı, Peşə məktəbinin direktoru Q. Ağayev, Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşı İ. Həsənov ədibin ömür yolu, bədii və elmi yaradıcılığı ilə bağlıfikirlərini bölüşdülər, eləcə zəngin yaradıcılığından nümunələr söylədilər. Tədbirin sonunda “Sabir Rüstəmxanlı-76”başlıqlı sərgiyə baxış oldu və xatirə şəkilləri çəkildi.

Kredo .- 2022.- 2 iyun.- S.14.

Zəfər Orucoğlu